Mürsəl İrəvanlı,
Yazıçı-publisist,
M. Qorki adına
Beynəlxalq
mükafat laureatı
Gəncə şəhəri

QAÇAQ KƏRİMİN NƏVƏSİ

Yaman fikirli görünür bu şəkildə Fərman Kərimzadə. Barmaqları arasında narın-narın tüstülənən siqaretin külünü çırpmağı belə yaddan çıxarıb. Görəsən nə fikirləşir. Bəlkə ömür boyu üzləşdiyi əzab-əziyyətlər haqsızlıqları göz önündən keçirir, ya da Mərkəzi Komitənin I katibi Əbdürrəhman Vəzirovla ağır və üzücü söhbəti xatırlayır. Bəlkə də Moskvada qara gözlərindən od saçan gözəl qaraçı qızının taleyin vəfasızlığı ilə bağlı ünvanına səsləndirdiyi sözlər onu qəm dəryasına qərq edib. Kim bilir...

Bildiyimiz Fərman Kərimzadənin bir yaz günü Tərtərdə qəfildən dünyasını dəyişməsidir. Ağxalatlılar bu qəfil ölümü beyninə qan sızması, başqaları Allahın işi, ömrün vəfasızlığı ilə izah edirlər. Yazıçı oğlunun fikrincə isə atasının qəfil ölümü müəmmalar və bəlkələrlə doludur. Ancaq ömrün bir anının əbədiləşdiyi foto-şəkildən fərqli qəfil ölüme nə vaxtsa aydınlıq gətiriləcək.

Böyük nəslin davamçısı

Vedidə dünyaya gəlib. Mənsub olduğu nəslin nümayəndələrinin sayı 150 mini ötüb. Deyilənlərə görə, bir gün iki qaçağın sözü çəp gəlir. Dava zamanı qaçaqların ikisi də ölümcül yaralanır. Və yalnız son anda onların eyni bir nəslin nümayəndəsi, əmi uşaqları olduğu aydınlaşır. Qaçaqlar sürünə-sürünə yaxınlaşıb, bir-birlərinin boynunu qucaqlayır və elə bu vəziyyətdə də canlarını tapşırırlar.

Fərman Kərimzadənin ata babası Qaçaq Kərim də Vedidə və ətraf mahalda qoçaqlığı ilə ad çıxarıb. Ömrünün 30 ilini başına yığdığı igidlər və ömür-gün həmdəmi Şahpəri xanımla dağda-daşda, rus imperiyasına qarşı savaşda keçirib. 1827-1829-cu illərdə Rus-Türk Müharibəsi zamanı Qaçaq Kərim öz dəstəsi ilə Osmanlı Ordusunun tərkibinə keçib. Ruslara qarşı döyüşlərdə qəhrəmanlıq göstərən qaçağın sonrakı taleyi barədə məlumat yoxdur.

Qoçaqlıqda Nəbinin Həcərindən geri qalmayan Şahpəri nənənin cəsurluğu, igidliyi barədə rəvayətlərə Vedi camaatı arasında indi də nəsildən-nəsilə ötürülür. Deyilənlərə görə, bir gün igidlər gecə vaxtı qəbristanlıqda aş süzməkdən mərc gəlirlər. Ömrünün yarısını at belində keçirən, sərrast tüfəng atmaqda ərindən geri qalmayan Şahpəri nənə bu işi öz öhdəsinə götürür. Və bir gün gecəyarısı dəm-dəzgahını götürüb, təkbaşına qəbristanlığa aş süzməyə gedir. Mərci uduzduğunu anlayan qaçaq onu qorxutmaq qərarına gəlir. Aş dəmə qoyulan zaman yarıuçuq başdaşının arxasından əlini uzadaraq, "mənə də bir qaşıq aş ver" deyir. Qəfil eşitdiyi səs qadını qorxutsa da, "mərhum"un əlini boş qaytarmır. Aşdan bir qaşıq götürüb, başdaşının arxasından əlin içinə tökür. Bu hadisə ikinci, üçüncü dəfə də təkrarlanır. Əl dördüncü dəfə uzandıqda "mərhum"un acgözlüyündən cana doyan Şahpəri nənə qaşıqla onun əlinin üstündən vurur.

Ana tərəfi əslən Ərdəbildən, Şah İsmayıl Xətainin nəslindəndir. Əziz Kərimzadə atasının təkcə övladlarına deyil, bütün Azərbaycana aşıladığı Şah İsmayıl sevgisinin də nəslin tarixi köklərindən qaynaqlandığını deyir: "Tale Şah İsmayılla atamı bir-birinə bağlamışdı. Onların ölümləri arasında da oxşarlıq var. Hər ikisi həyatdan erkən köçüb, Xətai 38, atam 52 yaşında. İkisi də insultdan, beyninə qan sızmadan dünyasını dəyişib".

Atası Şixəli oğlu İsmayıl Abbasqulu ağa Şadlinskinin daşnaklara qarşı təşkil etdiyi xalq hərəkatının üzvlərindən olub. 1918-ci ildə daşnaklar tərəfindən mühasirəyə alınan Vedi, fransızların, ingilislərin, rusların havadarlığı sayəsində iki il mühasirədə qalıb. Türkiyədən silah gətirib camaata paylayan Abbasqulu ağa sonda kənd camaatını qırğından qorumaq üçün İran və Türkiyə ərazisinə keçirib. Sovet hökuməti qurulduqda isə fürsətdən yararlanmaq qərarına gəlib. Ətrafına yığdığı vedili igidlərdən ibarət dəstəyə "Qırmızı tabor" adını verərək, 11-ci Qırmızı Ordunun tərəfinə keçir və öncə Naxçıvanı, ardınca da Vedini erməni daşnaklarından xilas edir.

İnqilabdan sonra uzun illər Vedidə, Naxçıvanda "çeka" rəisi işləyən Şixəli oğlu 1951-ci ildə Beyləqana köçüb. Onda Fərman Kərimzadənin 14 yaşı vardı.

mükafatın laureatı edib

Fərman Kərimzadə böyük bir nəslin ilk yazıçısı olub. "Qarlı aşırım" kitabı çap olunanda 28 yaşı vardı. Əsərin üzərində uzun illər işləmiş, hadisənin şahidi olan ağsaqqal-ağbirçəklərin xatirələrini dinləmək üçün dəfələrlə Ermənistana, dədə-baba yurdu Vediyə getmişdi. Yazıçının oxucular arasında "Qarlı aşırım"dan heç də az sevilməyən "Xudəfərin körpüsü" isə 1982-ci ildə işıq üzü görür. Əsərin hazırlığına 8 il vaxt sərf etsə də, istər "Xudəfərin körpüsü"nü, istərsə də "Çaldıran döyüşü"nü bir ilə araya-ərəsəyə gətirmişdi. Tarixi həqiqətləri əks ətdirən "Təbriz namusu" və son əsəri "Qoca qartal"ı kitab halında görmək isə Fərman Kərimzadəyə nəsib olmadı...

> *Fərman Kərimzadənin oğlu atasının ölümü ilə bağlı müəmmalara indiyə kimi aydınlıq gətirilmədiyini deyir*

21 yaşında ailə həyatı qurmuşdu. Azərbaycanlı övladlarının öz torpaqlarında erməni evlərində kirayə qaldıqları vaxtlar idi. Yeni cütlük də bir müddət kirayədə qaldıqdan sonra Beyləqana köçür. 1965-ci ilin aprelində təkrar Bakıya qayıdırlar. Bir müddət Keşlə dəmiryolunun yaxınlığında bir otaqlı mənzildə kirayədə qaldıqdan sonra "Xutor"dakı bir otaqlı gecəqonduda məskunlaşırlar. Yazıçı ailəsinin həyatında ən xoşbəxt illər də "Xutor"da yaşadıqları dövrə təsadüf edir. 1973-cü ildə Kərimzadəyə kinostudiyadan 4 otaqlı mənzil verirlər. Beləcə, altı nəfərlik bir ailənin evsizlik probleminə son qoyulur...

Ən böyük arzusu övladlarının vətənpərvər ruhda böyüməsi idi. Oğlunu hərbi xidmətə "vətənə kişi kimi xidmət et" xeyir-duası ilə yola salmışdı: "Əsgərliyimi Gürcüstanda çəkirdim. Bizi Əfqanıstandakı döyüşlərə hazırlayırdılar. Atam bu barədə xəbər tutanda gedişimi əngəllədi. Dedi, orada xaçpərəstlər müsəlmanları qırır. Vaxt gələcək, buna görə ölkə xəcalət çəkəcək. Hərbi xidmətdə olanda bir məktub yazmışdı. İndiyəcən unutmamışam. Yazırdı ki, arzu edirəm, xidmət etdiyin tank bəşəriyyətə kotana qoşulan öküz kimi xidmət etsin. Tüfənginin qundağına da gözüm düşüb. Ondan yaxşıca kababa düşən köz olar. Çalış aid olduğun balıq bürcü kimi daim yüksəkdə dayan, balıq kimi sürüşkən olma. Yaşasın, ayağın altındakı Azərbaycan torpağı!"

Həyatının müxtəlif dönəmində haqsızlıqlarla üzləşmişdi. Moskvaya ali təhsil almağa gedərkən Yazıçılar Birliyindən göndəriş belə ala bilməmişdi. "Xudəfərin körpüsü", "Qarlı aşırım"a görə dəfələrlə tənqid olunmuşdu. "Qarlı aşırım" Lenin Komsomolu mükafatına təqdim olunmuşdu. Rəsmi ərizə yazmışdı ki, bu mükafata hörmətim olmadığına görə, ondan imtina edirəm. Şah İsmayıl Xətai, Kərbəlayı İsmayıl sevgisi də onu təzyiqlərin hədəfinə çevirmişdi. Haqsızlıqların, təzyiqlərin nəticəsi idi ki, şablon sualların cavabında "həyatda o qədər əziyyət çəkmişəm ki, yenidən doğulsam, bu həyatı yaşamaq, çəkdiyim əziyyətləri təkrar yaşamaq istəmirəm" deyərdi.



Ermənistandan Azərbaycana ilk köç karvanı başlayanda ermənistanlı azərbaycanlılardan ibarət nümayəndə heyətinin başında Moskvaya gedir. Qorbaçov, Qromıko, SSRİ "KQB"-sinin sədri Çebrikovun qəbulunda olur. Moskvadan qayıtdıqdan sonra Azərbaycan MK-nın I katibi Vəzirovla görüşür. Vəzirov "camaat sənin sözünə qulaq asar, onlara dənən geri qayıtsınlar" təklifini irəli sürsə də, bu məsuliyyətin altına girməkdən imtina edir. "İnsanların həyatı ilə oynamaq olmaz. Ermənistanda onların həyatı təhlükə altındadır. Belə bir şəraitdə onları geri qaytarmaq dirigözlü ölümə göndərmək deməkdir" deyə razılaşmır. Birinci katiblə sözləri çəpləşir və mübahisələri düşür. Bu hadisədən sonra yazıçı ilə I katibin münasibətləri son dərəcə gərginləşir.

Müəmmalı ölüm

Nəsilləri öz uzunömürlüyü ilə seçilirdi. Fərman Kərimzadə də bu dünyadan Tanrının nəvə payını görməmiş, vaxtsız, qəfil köçəcəyinə inanmırdı. Moskvada bir qaraçı qızı falına baxıbmış. Xanımına deyərmiş ki, zalımın qızı keçmişlə bağlı hər şeyi düz söylədi. Ancaq "ömrün çox qısa olacaq" sözlərinə inanmıram. Bizim nəsilimiz uzunömürlü olub, mən də çox yaşayacağam.

Nəsil xəstəliyi olan yüksək qan təzyiqi irsən ona da keçmişdi. Ancaq alışmışdı yüksək təzyiqə, sağlamlığından şikayəti yox idi. Səkzinci mərtəbədə qalırdı. Liftin işləmədiyi günlərdə piyada düşüb-qalxmaqdan yorulmurdu. Ermənistandan qovulanların Tərtər, Beyləqan və digər rayonlarda yerləşdirilməsi ilə məşğul idi. Novruz bayramına sanılı günlərin qaldığı bir vaxtda Tərtərin Bəyimsorov kəndinə gedibmiş. Camaata yer vermək üçün imtina edən rayon başçısı ilə bərk mübahisəsi düşür. Hər şey 3 saatın ərzində baş verir. Evlərinə zəng vurub vəziyyətinin kritik olduğunu bildirirlər. Oğlu Respublika Xəstəxanasının rəhbərliyindən Tərtərə tibbi vertolyot göndərilməsini xahiş etsə də, buna ehtiyac qalmır. Əziz Kərimzadə özünü kəndə yetirəndə atası artıq keçinmişdi.

1937-ci il martın 3-də Vedidə dünyaya gələn Fərman Kərimzadə 52 il sonra 1989-cu il martın 17-də dünyasını dəyişir. Vəzirovun dəfn komissiyası yaradılması barədə göstərişini belə gözləmirlər. 14 gün öncə ömrünün 52-ci bahanna əlvida deyən, yeni yaşda göz açmağa, nəfəs dərməyə macal tapmayan yazıçının son mənzili Binəqədi məzarıstanlığı olur...

Həyatdan özü vaxtsız getdisə də, yaddaşlarda izi, dodaqlarda sözü qaldı...